# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332, № 4, maddələr 747, 748, 759, № 5, maddə 939, № 7, maddələr 1314, 1323, № 8, maddə 1473, № 12, maddələr 2047, 2055, 2061; 2020, № 1, maddə 84, № 2, maddələr 185, 195, 219, № 3, maddələr 345, 375, № 4, maddə 488, № 8, maddə 1130, № 10, maddə 1267; 2021, № 1, maddə 94, № 2, maddə 201, № 3, maddə 271, № 4, maddələr 392, 422, № 9, maddə 1053, № 10, maddə 1172, № 12, maddələr 1516, 1519, 1536, 1541; 2022, № 1, maddə 83, № 3, maddələr 266, 280, № 4, maddə 396, № 5, maddə 545, № 6, maddələr 669, 681; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 23 avqust tarixli 324 nömrəli və 27 sentyabr tarixli 372 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal

nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3810 10 000 0 və 7229 20 000 0 alt yarımmövqelərinə aid sətirlərin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “5” rəqəmi “5 (30.09.2027-ci il tarixinədək 0%)” sözləri ilə əvəz edilsin.

1.2. 5603 11 900 1, 5603 12 900 1, 5603 13 900 1, 6307 90 980 1 və 6307 90 980 2 alt yarımmövqelərinə aid sətirlərin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “31.12.2022-ci il” sözləri “31.12.2024-cü il” sözləri ilə əvəz edilsin.

1.3. 5603 12 100 0 və 5603 13 100 0 alt yarımmövqelərinə aid sətirlərin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütunu aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| 15 (31.12.2024-cü il tarixinədək 0%) |

1.4. 9018 31 100, 9018 31 100 1, 9018 31 100 2, 9018 31 100 3, 9018 31 100 4, 9018 31 100 5 və 9018 31 100 9 alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 9018 31 100 | – – – plastmasdan: | | |
| 9018 31 100 1 | – – – – insulin üçün nəzərdə tutulan və həcmi 1 millilitr (ml) və ya daha az olan | əd | 0 |
| 9018 31 100 2 | – – – – həcmi 2 millilitr və ya daha az olan | əd | 0 (31.12.2024-cü il tarixinədək 1 ədədi üçün 0,02 ABŞ dolları) |
| 9018 31 100 3 | – – – – həcmi 2 millilitrdən çox, lakin 5 millilitrdən çox olmayan | əd | 0 (31.12.2024-cü il tarixinədək 1 ədədi üçün 0,025 ABŞ dolları) |

| | | | |
|---|---|---|---|
| 9018 31 100 4 | – – – – həcmi 5 millilitrdən çox, lakin 10 millilitrdən çox olmayan | əd | 0 (31.12.2024-cü il tarixinədək 1 ədədi üçün 0,03 ABŞ dolları) |
| 9018 31 100 5 | – – – – həcmi 10 millilitrdən çox, lakin 20 millilitrdən çox olmayan | əd | 0 (31.12.2024-cü il tarixinədək 1 ədədi üçün 0,04 ABŞ dolları) |
| 9018 31 100 9 | – – – – digərləri | əd | 0 (31.12.2024-cü il tarixinədək 1 ədədi üçün 0,04 ABŞ dolları) |

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 5 noyabr 2022-ci il

№ 408